**Fuad Maqsud oğlu HƏSƏNZADƏ**
Azərbaycan Elmi-Tədqiqat
Kənd Təsərrüfatının İqtisadiyyatı və
Təşkili İnstitutunun doktorantı

# AQRAR SEKTORDA SAHİBKARLIQ MÜHİTİNİN ƏLVERİŞLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Məqalədə aqrar sahəyə dövlət müdaxiləsi səviyyəsinin ərzaq təhlükəsizliyinə təsirləri müqayisəli analiz edilib. Müəllif belə nəticəyə gəlirlər ki, bəzi ölkələrdə kənd təsərrüfatına dövlət müdaxiləsi azaldığından 1992-ci ildən sonra kənd təsərrüfatı məhsullarının ümumi həcmi kəskin aşağı düşüb. Digər tərəfdən, dünya ölkələrinin əksəriyyətində adambaşına ÜDM artdıqca kənd təsərrüfatının ölkə iqtisadiyyatında rolu da azalır. Əksinə, adambaşına ÜDM həcmi nisbətən az olan ölkələrdə kənd təsərrüfatı sektorunun ÜDM-da payı yüksəkdir.

**Açar sözlər:** *dövlət müdaxiləsi, aqrar sahə, ÜDM, ərzaq təhlükəsizliyi, ərzaq təhlükəsizliyi indeksi*

**Giriş**

Hər bir ölkə üçün iqtisadi inkişafın strateji prioritetlərinin düzgün seçilməsi mühüm əhəmiyyət daşıyır. Çünki belə seçim həm təbii, həm də insan ehtiyatlarından daha səmərəli istifadəyə imkan verərək, iqtisadi artımla yanaşı rifah səviyyəsinin də yüksəlməsinə təminat verir. Son onilliklərdə bilik iqtisadiyyatının genişlənməsi digər ənənəvi iqtisadi fəaliyyət sahələrinin, xüsusilə, aqrar sektorun strateji prioritet kimi seçilməsini şübhə altına alıb. Buna əsas səbəb inkişaf etmiş ölkələrdə aqrar məhsul istehsalının həcminin ÜDM-dəki payının sürətlə azalmasıdır. Lakin belə tendensiya heç də aqrar sektorun əhəmiyyətini azaltmır. Çünki aqrar sektorun məhsullarnın əsas hissəsi birbaşa insanların ərzaq təhlükəsizliyi ilə bağlıdır. Ərzaq təhlükəsizliyi isə hər bir ölkə üçün milli təhlükəsizliyin mühüm tərkib hissəsidir. Təsadüfi deyil ki, BMT-nin 2015-ci ildə qəbul etdiyi Dayanıqlı İnkişaf Hədəfləri arasında yoxsulluğun azaldılması və aclığın aradan qaldırılması ilk iki hədəfdir. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, inkişaf etmiş ölkələrdə aqrar sektorda istehsal həcminin ÜDM həcmində payının azalması heç də ümumi istehsal həcminin azalması demək deyil. Belə ki, texniki və texnoloji imkanların genişlənməsi, dünya üzrə orta aqrar məhsuldarlığını son onilliklərdə sürətlə artırıb. Bu sektorda çalışanların sayının da azalması heç də aqrar sektorun əhəmiyyətini azaltmır. Əksinə, bu sektorda istehsal prosesində, həmçinin idarəetməsində innovativ yeniliklərin tətbiqi əmək məhsuldarlığını xeyli artırıb. Aqrar məhsulların əlçatanlığı getdikcə daha çox insan üçün mümkün olub.

Aqrar məhsul istehsalının genişlənməsinin ərzaq təhlükəsizliyi ilə sıx bağlılığı hər bir ölkədə bu sektorun inkişafına xüsusi dövlət tənzimlənməsini zəruri edir. Belə tənzimləmə mülkiyyətlə, təşkilati-hüquqi idarəetmə və sair məsələlərə aid hüquqi aspektlərlə yanaşı, birbaşa maliyyə yardımlarının və subsidiyaların verilməsinə, texniki və informasiya yardımlarının göstərilməsinə qədər müxtəlif məsələləri əhatə edə bilər. Lakin digər tərəfdən, aqrar sektor iqtisadiyyatın digər sektorlarına nisbətən ən liberal iqtisadi fəaliyyət sahəsidir. Bu sahədə istehsal amilləri bazarı daha rəqabətlidir. Qiymətlərin sərbəstliyi, torpağın özəl mülkiyyətdə olması, satış bazarlarının seçilməsindəki sərbəstlik aqrar sektorda libaral biznes mühiti yaradır. Liberallıq ilə dövlət tənzimlənməsinin vəhdətinin düzgün seçilməsi arar sektorun inkişafında mühüm əhəmiyyət daşıyır. Çünki dövlət tənzimləməsi səviyyəsinin zəruri həddən çox və ya az olması aqrar sektorda məhsuldarlığa və dolayısı ilə ərzaq təhlükəsizliyinə, aqrar sektorda məşğulluğun təminatına mənfi təsir göstərə bilər. Müxtəlif iqtisadi fəaliyyət sahələrində, o cümlədən, aqrar sektorda liberallaşma prosesinin geniş vüsət almasına baxmayaraq, dövlətin iqtisadiyyatı tənzimləməsi hər bir ölkədə mövcuddur. Dövlətin iqtisadiyyatı, o cümlədən, aqrar sektoru tənzimləməsi tədbirləri təkcə bu sektora dövlətin maliyyə köməyi ilə məhdudlaşa

bilməz. Bu həm də aqrar sektorun inkişafına dəstək ola bilən digər tədbirləri, məsələn, bu sektorda özəl sahibkarlığın inkişafını nəzərdə tutur. Aqrar sektorun liberallaşması və bununla yanaşı bu sektorda dövlət tənzimləməsinin mövcudluğu qloballaşma prosesi ilə ciddi şəkildə əlaqəlidir.

Doing Buisnes biznes mühitinin əlverişliliyi göstəricisi kimi əvvəllər 5 göstəricidən, o cümlədən 1)şirkətin yaradılması, 2)işçilərin işə qəbulu; 3)işçilərin işdən azad edilməsi, 3)müqavilələrin yerinə yetirilməsi, 4) kreditlərin əldə edilməsi imkanı göstəricilərindən istifadə edirdi. Sonrakı illərdə göstəricilərin sayı 7-yə, daha sonra 10-a çatdırılıb. Hazırda Doing Buisness tədqiqat qrupu biznes mühitinin əlverişliliyini müəyyən etmək üçün 11 göstəricidən istifadə edir. Biznes mühitinin əlverişliliyinin əsas amilləri kimi bu göstəricilər də ildən ilə təkmilləşdirilib. Hazırda 11 göstəricidən istifadə edilir. Bu göstəricilər bunlardır:1) şirkətin yaradılması; 2)tikintiyə icazənin alınması; 3)elektrik enerjisinə qoşulma; 4)mülkiyyətin qeydiyyata alınması; 5)kreditin alınmasının asanlığı; 6)kiçik investorların qorunması; 7)vergilərin ödənilməsi; 8)xarici ticarətin asanlığı; 9)müqavilələrin yerinə yetirilməsinin təmin edilməsi; 10)ödəmə qabiliyyətinin olmaması probleminin həlli; 11) əmək bazarının tənzimlənməsi. Bu göstəricilərin özləri də altgöstəricilərdən ibarətdir və onlar əsasında müəyyən edilir.

**Əsas mətn**

Doing Business yeni müəssisənin qeydiyyata alınmasını tənzim edən normaların əlverişlilik dərəcəsini hərtərəfli qiymətləndirməyə imkan verən 4 göstəricini təhlil edir: 1)zəruri prosedurların sayı; 2)qeydiyyata sərf edilən orta müddət; 3)qeydiyyat üçün rəsmi xərclər; 4)pul depozitinin minimum məbləği. Bu amillərin bisnes mühitinə təsirinin öyrənilməsi zamanı müəyyən fərziyyələr də edilir. Məsələn, belə fərz edilir ki, şirkət aşmaq istəyənlər üçün məlumatlar tam açıqdır, şirkətin açılmasına razılıq verən müvafiq dövlət orqanında qəsdən süründürməçilik və korrupsiya halları baş vermir. Digər tərəfdən, müxtəlif ölkələrdə özəl müəssisələrin ölçüləri müxtəlif olduğundan və çirkətin ölçüsündən asılı olaraq qanunvericilikdə fərqlər yarandığından Doing Buisness özəl müəssisəsinin özünəməxsus modelini formalaşdırır. Doing Buisnesə görə “model şirkət” öz hüquqi təşkilati formasına görə məhdud məsuliyyətli cəmiyyətdir, ölkənin əhalisi çox olan şəhərində yerləşir, tamamilə yerli şirkətdir, onun 5 fiziki təsisçisi var, nizamnamə fondu ölkədə adambaşına orta gəlirdən 10 dəfə çoxdur, lisenziya tətbiq edilməyən adi mal istehsal edir, xidmət göstərir və ya ticarətlə məşğuldur, istifadə etdiyi binaları və ya ticarət obyektlərini icarəyə götürür, heç bir xüsusi güzəştlərə malik deyil, fəaliyyətə başladığı bir aydan sonar 50 işçisi var, 10 səhifə həcmində sənədləri var.

Şirkətin qeydiyyata alınması üçün zəruri olan prosedurlar da müəyyən model əsasında müəyyənləşdirilir. Məsələn, prosedurların sayı hesablananda yalnız təsisçilərin özü tərəfindən yerinə yetirilən prosedurlar nəzərə alınır. Hüquqi cəhətdən vacib olmayan prosedurlar nəzərə alınmır. – şirkətin gündəlik fəaliyyətində yerinə yetirilməsi mütləq şərt olan hallar istisna olmaqla. Təkcə ayrı-ayrı şirkət növləri üçün vacib olan xüsusi prosedurlar hesaba alınmır. Kommunal xidmətlərə qoşulma ilə bağlı olan prosedurlar ancaq o halda nəzərə alınır ki, qanuni olaraq, şirkət fəaliyyətə başlamazdan əvvəl onların məcburi yoxlaması nəzərdə tutulsun.

Şirkətin qeydiyyatı üçün tələb olunan müddət dedikdə bir prosedura sərf edilən günlərin sayı nəzərdə tutulur. Əgər bu və ya digər prosedur əlavə xərclər hesabına sürətləndirilə bilərsə, onda əsas olaraq ən qısa müddət götürülür. Güman edilir ki, sahibkar boş yerə vaxt itirmir və bir proseduru tamamlayaraq dərhal digərinə keçir.

Şirkətin qurulması üçün *xərclər hesablanarkən* həm qanunvericilik və hüquqi-normativ sənədlər, həm də xüsusi qiymət siyahıları nəzərə alınır. *Şirkətin qurulması üçün depozitin minimum məbləği* (yəni sahibkar qeydiyyatdan əvvəl şirkətin adına banka qoymalı olduğu pul məbləği) adətən, qanunvericiliklə müəyyənləşdirilir. Bir çox ölkələr, ümumiyyətlə, bunu tələb etmir, bəzi təsisçilərə isə depozitin yalnız bir hissəsini ödəməyə – qalan hissəsi müəyyən müddət ərzində ödənilmə şərti ilə (adətən, şirkət fəaliyyətə başladığı vaxtdan sonra bir il ərzində), – icazə verilir.




**Qrafik 1 Şirkətin qeydiyyata alınması göstəricisi üzrə region ölkələrinin reytinqlərinin müqayisəli dinamikası**




**Qrafik 2 Şirkətin qeydiyyata alınması göstəricisi üzrə region ölkələrinin 2017-ci il üçün reytinqləri**

Bu göstərici üzrə Azərbaycan 190 ölkə arasında 2015 və 2016-cı illərdə 5-ci, Türkiyə uyğun olaraq, 90 və 79-cu, Rusiya 37 və 26-cı, Ermənistan hər iki il üzrə 9-cu, Gürcüstan isə uyğun olaraq, 10 və 8-ci, İran isə 97-ci və 102-ci yerdə olub. Müqayisə üçün qeyd edək ki, region ölkələrindən yerlərdə qərar tutublar. Göründüyü kimi, şirkətlərin qeydiyyata alınması göstəricisi üzrə Azərbaycan region ölkələri arasında ən əlverişli, İran isə ən əlverişsiz biznes mühitinə malikdir (Qrafik 1 və qrafik 2).

Doing Buisness tədqiqat qrupu biznes mühitinin qiymətləndirilməsi üçün ikinci mühüm amil kimi tikintiyə icazənin verilməsinin nə dərəcədə asan olması amilini götürür. Bu amilin qiymətləndirilməsi üçün bir neçə məlumatdan istifadə edilir:

- Konkret layihə ilə bağlı bütün sənədlərin toplanması və müvafiq orqana təhvil verilməsi (bura tikiləcək binanın planı, tikinti sahəsinin xəritəsi, şəhərsalma ilə bağlı sertifikat)
- Tikintini aparacaq mühəndislərin, iş icraçılarının dəvət edilməsi
- Tikinti ilə bağlı zəruri lisenziyanın, icazələrin və sertifikatların alınması
- Zəruri xəbərdarlıqların göndərilməsi
- Zəruri yoxlamalardan keçmək

Tikintiyə icazənin alınmasında tələb olunan prosedurların sayı, icazənin alınması üçün tələb olunan müddət və xərclər ölkədə biznes mühitinin nə dərəcədə əlverişli olduğunu bildirir.




**Qrafik 3 Tikintiyə icazənin alınması göstəricisi üzrə region ölkələrinin reytinqlərinin müqayisəli dinamikası**




**Qrafik 4 Tikintiyə icazənin alınması göstəricisi üzrə region ölkələrinin 2017-ci il üçün reytinqləri**

Bu göstərici üzrə, Azərbaycan 2015 və 2016-cı illərdə uyğun olaraq, 121-ci və 127-ci,Türkiyə uyğun olaraq, 90-cı və 79-cu, Rusiya Federasiyası 117-ci və 115-ci, Ermənistan uyğun olaraq, 78-ci və 81-ci, Gürcüstan isə uyğun olaraq, 9-cu və 8-ci, İran isə hər iki il üçün 27-ci yerləri bölüşdürür. Göründüyü kimi, tikintiyə icazənin alınması göstəricisi üzrə region ölkələri arasında

ən əlverişli biznes mühiti Gürcüstanda, ən əlverişsiz biznes mühiti isə Azərbaycandadır. "*Elektrik enerjisinə qoşulma*" göstəricisi müəssisənin anbarının daimi olaraq elektrik enerjisi ilə təmin edilməsi üçün zəruri olan presedurların sayını, bu prosedurların həyata keçirilməsi üçün tələb olunan vaxtı və hər bir prosedurun xərcini nəzərdə tutur. Burada da sadəlik üçün müəyyən göstəricilərə malik olan "anbar modeli" nəzərdə tutulur, Digər tərəfdən, nəzərdə tutulur ki, elektrik enerjisinə qoşulma daimidir, 3 fazalı 4 naqillidir və 140 KVt gücə malikdir. Fərz edilir ki, xəttin uzunluğu 150 metrdir. "*Qoşulma modeli*" üçün digər məhdudiyyətlər də nəzərdə tutulur. Həmçinin anbarda elektrik enerjisindən istifadənin müddəti ilə bağlı fərzlərdən də istifadə edilir. Məsələn, nəzərdə tutulur ki, anbar ayda 30 gün, hər gün isə 8 saat işləyir. Elektrik enerjisinin tarifi olaraq mart ayının tariflərindən istifadə edilir.




**Qrafik 5 Elektrik enerjisinə qoşulma göstəricisi üzrə region ölkələrinin reytinqlərinin müqayisəli dinamikası**




**Qrafik 6 Elektrik enerjisinə qoşulma göstəricisi üzrə region ölkələrinin 2017-ci il üçün reytinqləri**

Beləliklə, bu göstərici üzrə ölkədə vəziyyətin biznes mühitinə təsiri mühüm hesab olunur. Hazırda elektrik enerjisi ilə təminat olmasa biznesin təşkilini təsəvvür etmək mümkün deyil. Bu göstərici üzrə Azərbaycan, 2015-ci ildə 104-ci və 2016-cı ildə 105-ci, Türkiyə uyğun olaraq, 36-cı və 58-ci, Rusiya Federasiyası 26-cı və 30-cu, Ermənistan uyğun olaraq, 85-ci və 76-cı, Gürcüstan isə uyğun olaraq, 65-ci və 39-cu, İran isə 2015-cı ildə 90-cı və 2016-cı ildə 94-ci, yerləri bölüşdürürlər. Göründüyü kimi, elektri enerjisinə qoşulma göstəricisi üzrə region ölkələri arasında ən əlverişli biznes mühiti Rusiya Federasiyasında, ən əlverişsiz biznes mühiti isə Azərbaycandadır. Doing Buisness tədqiqat qrupu mülkiyyət baxımından əlverişli biznes mühitinin ölçü göstəricisi kimi mülkiyyətin qeydiyyatı üçün hüquqi prosedurların sayını, bu prosedurların yerinə yetirilməsi üçün tələb olunan vaxtı və belə prosedurları keçmək üçün rəsmi tələb olunan xərcləri nəzərdə tutur. Bu göstərici üzrə də müxtəlif ölkələrdəki biznes mühitini müqayisə etmək üçün bəzi fərzlər edilir. Məsələn, fərz edilir ki, alıcı məhdud məsuliyyətli şirkətdir, bu şirkət ölkənin ən böyük şəhərinin ətrafında yerləşir, şirkətin bütün təsisçiləri ölkə vətəndaşlarıdır, şirkətin 50 işçisi var və ümumi iqtisadi fəaliyyət növü ilə məşğul olur. Mülkiyyətin növü ilə də bağlı bəzi fərzlər edilir. Məsələn, mülkiyyətin dəyəri ölkədə adambaşına gəlirin 50 misli həcmindədir, tam olaraq satıcı şirkətə məxsusdur, girovda deyil və sair.




**Qrafik 7 Mülkiyyətin qeydiyyata alınması göstəricisi üzrə region ölkələrinin reytinqlərinin müqayisəli dinamikası**




**Qrafik 8 Mülkiyyətin qeydiyyata alınması göstəricisi üzrə region ölkələrinin 2017-ci il üçün reytinqləri**

**Nəticə**

Beləliklə, bu göstərici də biznes mühitinə təsir edən əsas amillərdən hesab edilir. Mülkiyyət alan şirkət mülkiyyətə sahibliyin asanlığına əmin olmasa mülkiyyəti almağa cəhd etməyəcək. Mülkiyyətin qeydiyyata alınması üzrə biznes mühiti əlverişli olduqca bazarda mülkiyyətin alqı-satqısı həcmi genişlənir. Bu göstərici üzrə Azərbaycan, 2015-ci ildə 21-ci və 2016-cı ildə 22-ci, Türkiyə uyğun olaraq, 54-cü və 54-cü, , Rusiya Federasiyası 8-ci və 9-cu, Ermənistan uyğun olaraq, 13-cü və 13-cü, Gürcüstan isə uyğun olaraq, 3-cü və 3-cü, İran isə 2015-cı ildə 85-ci və 2016-cı ildə 86-cı yerləri bölüşdürürlər. Mülkiyyətin qeydiyyata alınması göstəricisi üzrə region ölkələri arasında ən əlverişli biznes mühiti Gürcüstanda, ən əlverişsiz biznes mühiti isə İrandadır. Özəl müəssisələrin iqtisadi inkişafda roluna, onların inkişafına təsir edən amillərin təsnifləşdirilməsinə həsr edilən tədqiqatların müqayisəli təhlili belə nəticə çıxarmağa imkan verir ki, 1) iqtisadi inkişafın əsas hərəkətverici amillərindən biri özəl müəssisələrin inkişafının təmin edilməsidir; 2) özəl müəssisələrin inkişafının əsas səbəbi ölkədə biznes mühitinin əlverişliliyinin təmin edilməsidir; 3) Biznes mühitinin əlverişliliyinin təmin edilməsi bir neçə amildən asılıdır. Bu amillər üzrə biznes mühitinin əlverişliliyinin təmin edilməsi nəticə etibarı ilə ölkənin iqtisadi inkişafına səbəb olur. Doing Business Təşkilatının 2018-ci il hesabatının nəticələrinə görə, biznes mühitinin əlverişliliyi reytinqində Azərbaycanın 2017-ci ildə 190 ölkə arasında 57-ci yerdə qərarlaşıb. Bu göstərici bəzi region ölkələrinin, məsələn Gürcüstanın (9-cu yer) və Rusiya Federasiyasının (35-ci yer) göstəricilərindən zəif, Türkiyənin (60-cı yer) və İranın (124-cü yer) göstəricisindən yaxşıdır.

Aqrar sektorda sahibkarlığın inkişafına təsir göstərən ikinci qrup göstəricilər aqrar sektorun özünəməxsusluğu ilə bağlıdır. Bu qrupa 1) aqrar sektorda fəaliyyət göstərən müəssisələr arasında xüsusi və dövlət sektorunun payı; 2) aqrar sektorda fəaliyyət göstərən xüsusi və dövlət müəssisələrində çalışanların payı; 3) aqrar sektorda ümumi vergi yükünün ölkədəki orta vergi yükünə nisbəti; 4) aqrar məhsulların idxal-ixracına qoyulan məhdudiyyətlər; 5) aqrar sektorda qiymətlərin tənzimlənməsi; 6) aqrar sektorda lisenziyalaşmanın tətbiqi; 7) aqrar sektorda məşğulluğun tənzimlənməsi; 8) aqrar sektorda minimum əmək haqqı səviyyəsi ilə və sair məsələlərlə bağlıdır.

Докторант Азербайджанского Научно-Исследовательского
Института Экономики и Организации Сельского Хозяйства,

**Оценка благоприятной деловой среды в аграрном секторе**

**Резюме**

В статье сравнительно анализируется влияние государственного вмешательства в сельскохозяйственный сектор на продовольственную безопасность. Автор приходит к выводу, что с 1992 года совокупный объем сельскохозяйственной продукции в некоторых странах резко сократился, поскольку вмешательство правительства в сельское хозяйство сократилось. С другой стороны, роль сельского хозяйства в экономике снижается по мере роста ВВП на душу населения в большинстве стран. Наоборот, доля сельского хозяйства в ВВП высока в странах с относительно небольшим ВВП на душу населения.

**Ключевые слова**: *государственное вмешательство, сельскохозяйственный сектор, ВВП, продовольственная безопасность, индекс продовольственной безопасности.*

**Fuad Maqsud HASANZADE** Candidate for PhD,
Azerbaijan Research Institute of Economy
and Organizing of Agriculture

**Assessment of the favorable business environment in the agricultural sector**

**Abstract**

The article analyses the impact of government intervention in the agricultural sector on food security comparatively. The author concludes that, since 1992, the aggregate volume of agricultural products in some countries has dropped dramatically since the government intervention in agriculture has diminished. On the other hand, the role of agriculture in the country's economy is decreasing as the GDP per capita increases in the majority of countries. On the contrary, the share of agriculture in GDP is high in countries with relatively small GDP per capita.

**Key words:** *government intervention, agricultural sector, GDP, food security, food security index*

**Daxil olub:** 12.08.2023